Çağrılı Bildiriler / Invited Papers

9. Milletlerarası Türkoloji Kongresi Bildiriler Kitabı
9th International Congress of Turcology Proceedings Book

İSTANBUL UNIVERSITY PRESS

DOI: 10.26650/PB/AA10AA14.2023.001.061

# İrəvanın Ermənilərə Verilməsinə Osmanlı Siyasi Dairələrində Münasibət

## Political Views in the Ottoman Empire on Ceding Yerevan to the Armenians

**Rüxsarə QULİYEVA**[1]

[1]Xəzər Universiteti, Bakü, Azerbaycan

ORCID: R.G. 0000-0001-9245-7304

**ÖZ**

1877-1878 yılında olmuş Rusya-Türkiye Savaşı San-Stefano Barış Anlaşması ile sona erdi. Bu anlaşma şimdiki "Ermeni sorunu"na uluslararası statü verdi. Ermeni sorunu ilk defa uluslararası diplomatlar tarafından tartışmaya açıldı. San Stefano Anlaşmasının şartlarına katılmayan Avrupa ülkeleri, Berlin Kongresi'nde toplandı. Barış Anlaşması'nın Ermenilerle ilgili maddesi yeniden oluşturuldu ve "Ermeni sorununun" çözümünde Ermenileri tam olarak tatmin edecek bir belge ile sona erdi. Bununla da "Ermeni meselesi" XIX-XX . yüzyıllarda büyük devletlerin elinde bir araç olmuş ve sadece Osmanlı Türkiyesine karşı dönüşmemiş, bazı uluslararası güçler arasında giden Güney Kafkasya siyasetinin merkezinde olmuştur. Birinci Dünya Savaşı'ndan sonra Güney Kafkasya'da "Ermeni meselesi" gündeme geldi. Trabzon Konferansı'nda (14 Mart-13 Nisan 1918), Transkafkasya delegasyonu, Doğu Anadolu'da Türk devletinin arazisinde Ermeniler için kendi kaderini tayin hakkı temelinde özerklik kazanmaya çalıştı. Batum'daki konferans (11 Mayıs, 4 Haziran 1918), 11 Mayıs 1918'de, Trabzon Konferansı'nın sonuçsuz bitmesinden sonra Osmanlı İmparatorluğu ve Transkafkasya Seymu arasındaki barış müzakerelerinin ikinci aşaması olarak açıldı. Bu kez Azerbaycan topraklarında Ermeniler için bir devlet kurma sorunu müzakerelere dönüştü. Belirtelim ki Güney Kafkasya'da Ermenistan devletinin kurulmasına ve tarihsel Azerbaycan arazilerinin bir kısmını devlet olabilmek için Ermenilere verilmesinde Osmanlı siyasi çevrelerin görüşleri aynı değildi. Sadrazam Talat Paşa ve Harbiye Nazırı Enver Paşa Güney Kafkasya'da Ermeni devletinin kurulmasını uygun bulmuyorlardı. Batum görüşmelerinde Türkiye'yi temsil eden Halil Bey ve Vehib Paşa ise Azerbaycan'a ait bazı bölgelerin Ermenilere verilmesini kaçınılmaz olduğunu düşünüyorlardı.

**Anahtar Kelimeler:** Erivan, Azerbaycan Halk Cumhuriyeti, Osmanlı İmparatorluğu, Batum toplantısı, "Ermeni sorunu"

**ABSTRACT**

The Russo-Turkish War (1877-1878) ended with the treaty of San Stefano, and this treaty has given an international status to the Armenian question. The Armenian question was debated by international diplomats for

**Başvuru/Submitted:** 27.05.2021 **Kabul/Accepted:** 28.08.2021

**Sorumlu yazar/Corresponding author:** Rüxsarə QULİYEVA T.f.d., Xəzər Universiteti, Bakü, Azerbaycan.
E-posta: ruxsaraguliyeva@gmail.com

**Atıf/Citation:** Quliyeva, R. (2022). İrəvanın Ermənilərə verilməsinə osmanlı siyasi dairələrində münasibət. Korkmaz, F. (Ed.), *9. Milletlerarası Türkoloji Kongresi Bildiriler Kitabı* içinde (s. 909-918). https://doi.org/10.26650/PB/AA10AA14.2023.001.061

the first time in 1878. European states that did not agree with the terms of the Treaty of San Stefano were gathered at the Congress of Berlin. The portion of the peace treaty related to the Armenians was reworded and ended with a document that would fully satisfy the Armenians and settle the Armenian question. Thus, the Armenian question became a tool in the hands of the great states in the 19th and 20th centuries not only against Ottoman Turkey but also as a policy focus regarding the South Caucasus for some international powers. After World War I, the Armenian question again came up, this time in the South Caucasus. At the Trebizond Peace Conference (March 14-April 13, 1918), the delegation of the Transcaucasian Diet tried to gain autonomy based on the right of self-determination for the Armenians in the Eastern Anatolian section of the Ottoman Empire. The Batum Conference (May 11-June 4, 1918) started on May 11, 1918 as the second phase of the peace negotiations between the Ottoman Empire and the Transcaucasian Diet after the unsuccessful ending of the Trebizond Peace Conference. This time, the issue of creating a state for the Armenians in the Azerbaijani lands turned into negotiations. However, the idea of establishing the Armenian state in the South Caucasus and transferring a number of lands historically belonging to the Azerbaijanis to the Armenians should be noted as not being unanimous among Ottoman political circles. Prime Minister Talat Pasha and Military Minister Anwar Pasha did not see fit to establish the Armenian state in the South Caucasus, whereas Halil Bey and Vehib Pasha as the representatives of the Ottoman Empire in the Batum Conference considered the transfer of a number of lands belonging to Azerbaijan to the Armenians to be inevitable.

**Keywords:** Yerevan, Azerbaijan Democratic Republic, Ottoman Empire, Batum Conference, the Armenian question

## Giriş

1877-1878-ci ildə baş vermiş Rusiya-Türkiyə müharibəsi San-Stefano sülh müqaviləsi ilə başa çatdı. Bu müqavilə indiki "erməni məsələsi"nə beynəlxalq status verdi. Erməni məsələsi ilk dəfə beynəlxalq diplomatlar tərəfindən müzakirəyə qoyuldu. Müqavilənin 16-cı maddəsində deyilirdi: "Türkiyə ermənilər yaşayan vilayətlərdə tezliklə həyat şəraitini yaxşılaşdırmaq və yerli əhəmiyyətə malik islahatları həyata keçirmək öhdəliyini götürür və ermənilərin təhlükəsizliyini kürd və çərkəzlərdən qoruyacağına zəmanət verir" (Сан-Стефанский прелиминарный мирный договор, s. 16).

Rusiyanın Balkanlarda nüfuzunun artmasından ehtiyat edən Avropa dövlətləri San-Stefano müqaviləsinin şərtləri ilə razılaşmadılar və Berlin konqresinə toplaşdılar. Sülh müqaviləsinin qeyd etdiyimiz 16-cı maddəsi Berlin konqresinin 61-ci maddəsi ilə yenidən formalaşdırıldı və "erməni məsələsi"nin həllində erməniləri tam razı sala biləcək sənədlə yekunlaşdı. 61-ci maddədə deyilirdi: "Sultan hökuməti ermənilərin yaşadıqları vilayətlərdə yerli ehtiyacların zəruri etdiyi islahatları gecikdirmədən həyata keçirməyi və onların asayişini, təhlükəsizliyini kürdlərlə çərkəzlərdən qorumağı öhdəsinə götürür. Bu sahədə görüləcək tədbirlər böyük dövlətlərə bildiriləcəkdir və onlar da tədbirlərin həyata keçirilməsinə nəzarət edəcəklər" (Musayev, 2003, s. 111). Bununla da, "erməni məsələsi" XIX-XX əsrlərdə böyük dövlətlərin əlində bir vasitə olmuş və nəinki Osmanlı Türkiyəsinə qarşı çevrilmiş, hətta bəzi beynəlxalq güclər arasında gedən Cənubi Qafqaz siyasətində diqqət mərkəzində olmuşdur.

Birinci Dünya müharibəsini aparan hərbi blokların hər ikisinin üzvləri arasında ermənilərə dövlət yaratmaq barədə ümumi fikir formalaşmışdı. Rusiya, İngiltərə, Fransa və ABŞ gələcək erməni dövlətinin Osmanlı Türkiyəsi ərazisində - Şərqi Anadoluda yaradılmasına tərəfdar idilər.

Hələ Trabzon konfransında (14 mart-13 aprel 1918-ci il) Cənubi Qafqazın ali hakimiyyət orqanı olan Zaqafqaziya Seyminin nümayəndə heyəti Şərqi Anadoluda Türkiyə dövləti tərkibində olmaqla ermənilər üçün öz müqəddəratını təyin etmək hüququ əsasında muxtariyyət əldə etməyə çalışırdı (Документы и материалы по внешней политике Закавказья и Грузии, s. 83-84). Trabzon konfransı nəticəsiz bitdikdən sonra Osmanlı dövləti ilə Zaqafqaziya Seymi arasında sülh danışıqlarının ikinci mərhələsi kimi 1918-ci il mayın 11-də Batumda konfrans (11 may-4 iyun 1918-ci il) açıldı. Bu dəfə ermənilərə dövlət yaratmaq üçün Azərbaycan torpaqlarının verilməsi danışıqların müzakirəsinə çevrildi.

Batum danışıqlarında məlum oldu ki, Osmanlı siyasi dairələri gələcək erməni dövlətinin yaradılması üçün Azərbaycan torpaqlarının bir qisminin onlara verilməsinə tərəfdardı. Bu barədə Batum danışıqlarında iştirak edən Azərbaycan nümayəndə heyətinin üzvü Nəsib bəy Yusifbəyli Zaqafqaziya seyminin 27 may 1918-ci il tarixli fövqəladə iclasında məlumat verdi. O, bildirdi ki, "Türkiyə nümayəndə heyətinin fikrinə görə Cənubi Qafqaznın tərəqqisi üçün ən başlıca təminat Cənubi Qafqaz xalqlarının həmrəyliyi və birliyidir ki, buna nail olmaq üçün Azərbaycan tərəfi ermənilərə müəyyən qədər ərazi güzəştə getməlidir" (Arda, f. 970. s. 1, i 1, v. 46).

Amma qeyd edək ki, Cənubi Qafqazda erməni dövlətinin yaradılmasına və tarixən azərbaycanlılara məxsus olan bir sıra ərazilərin dövlət ola bilmək üçün ermənilərə verilməsində

Osmanlı siyasi dairələrinin fikirləri birmənalı deyildi. Sədrəzəm Tələt paşa və hərbi nazir Ənvər paşa Cənubi Qafqazda erməni dövlətinin yaradılmasını uyğun bilmir və buna qarşı çıxırdılar. Bunun mümkün olmadığı təqdirdə "Ermənistanın çox zəif və yaşaya bilməyəcək bir dövlət şəklində təşəkkül etməsini" təklif edirdilər. Mehmed Tələt paşa Mayın 24-də Batum konfransındakı türk nümayəndə heyətinin rəhbəri Dövlət Şurasının sədri və Ədliyyə naziri Xəlil bəy Menteşəyə göndərdiyi teleqramında yazırdı: "Ermənilərin bir hökumət halında təşəkkül etməsinə qətiyyən tərəfdar deyiləm. Kiçik bir erməni muxtariyyəti beş il sonra beş milyon əhalisi olan bir erməni dövləti halına gələcək və bütün Qafqaza hakim olaraq Şərqin Bolqarıstanına çevriləcəkdir. İran və Amerikada olan bütün ermənilər orada toplanacaq, ingilis və fransızlardan hər cür yardım alaraq, gələcəkdə xristian gürcülərlə və çox asanlıqla əcəmilərlə birlikdə bizim əleyhimizə bərəkət edəcəklər, bu səbəbdən mümkün olsa, "çibanı kökündən təmizləmək" ən xeyirli iş olacaqdır. Bu mümkün olmadığı təqdirdə Ermənistanın çox zəif və yaşamayacaq şəkildə təşəkkül etməsi zəruridir (Kurat, 1990, s. 661-662).

Lakin Tələt paşa və Ənvər paşadan fərqli olaraq Xəlil bəy Menteşə və Ferik Mehmed Vehib paşa tarixən Azərbaycana məxsus bir sıra ərazilərin ermənilərə verilməsini qaçılmaz hesab edir və bu məqsədlə sülh konfransında olan Azərbaycan nümayəndələrinə tövsiyə edirdilər ki, beynəlxalq aləm qarşısında ermənilərin mövcudluğunu tanımaq və onlara müəyyən güzəştlər edilməsi qaçılmazdır (Atase**,** 4/3671. k.2919, d.61- 499, f. 3-26). Xəlil bəy bu məsələ ilə əlaqədar M.Ə.Rəsulzadə və M.H.Hacınski ilə bir sıra danışıqlar apardı və nəticədə Azərbaycan nümayəndələrinin razılığını ala bildi. Əslində bu təklif ilk əvvəl ermənilər tərəfindən irəli sürülmüşdü. Bunun qarşılığında ermənilərlə müsəlmanlar arasında olan düşmənçilik də aradan qalxacaq və ermənilər Bakıdakı müsəlman əhalinin təhlükəsizliyini təmin etməyi öz üzərlərinə götürəcəkdilər (Qafarov, 2011, s. 164-165).

Görünür Xəlil bəy Menteşə və Ferik Mehmed Vehib Paşa Azərbaycana məxsus müəyyən ərazilərin ermənilərə güzəştə gedilməsi ilə Türkiyə-erməni münasibətlərinin birdəfəlik nizama salacaqlarını güman edirdilər. Xəlil bəy dərhal bəhs edilən təkliflə bağlı İstanbula məlumat verdi. Amma bu təklifin Azərbaycan nümayəndələri tərəfindən irəli sürüldüyünü bildirirdi. O, Tələt paşaya 26 mayda vurduğu teleqramda bunu xüsusi olaraq vurğulayaraq yazırdı: "... Müsəlman nümayəndələri bugün səhər yanıma gəldilər. Bakıdakı vəziyyətlə bağlı çox qayğılıdırlar. Zira, bu şəhər ermənilərin əlindədir. Bunun üçün bizə tərk ediləcək ərazinin ötəsində erməniləri qismən təmin edəcək bir kanun kəndilərinə ayırmaq istədilər..." (BOA, HR. SYS, D. 2371, G.6, v. 82-83)

Qeyd etdiyimiz kimi sədrəzəm Tələt paşa kimi hərbi nazir Ənvər paşa da Cənubi Qafqazda erməni dövlətinin yaradılmasını uyğun bilmirdi. Odur ki, Xəlil bəy Ənvər paşaya ərazi güzəştləri barədə məlumat verdikdə Ənvər paşa buna qarşı çıxdı. O, may ayının 27-də Osmanlı Orduları Qafqaz Cəbhəsinin komandanı Ferik Mehmet Vehib paşaya göndərdiyi teleqramda yazırdı: "Xəlil bəyin teleqramından anlaşıldığına görə, ermənilər bizə qaytardıqları ərazilərə müqabil Cənubi Qafqaz müsəlmanlarına aid ərazidən bir qisim almaq istəyirlərmiş və müsəlmanlar da buna muvafakat edəcəklərmiş. Məncə, bu, tamamilə yanlışdır. Əgər bugün Qafqazda beş-altı yüz min əhalisi olan və kafi miqdarda əraziyə malik kiçik bir Ermənistan təşəkkül edərsə, gələcəkdə əmrləri Amerikadan alaraq, o tərəfdən gələn ermənilərlə bu hökumət milyonlarla

əhaliyə sahib olacaqdır. Və bizim üçün şərqdə bir Bolqarıstan daha yaranar ki, bu bizim üçün Rusiyadan daha müzir bir düşmən olar... müsəlmanların ermənilərə heç bir haqq və ərazi verməmələrini təmin etməyi və bununla yanaşı bugün ermənilərin əlində olan müsəlmanalrın yaşadıqları İrəvan kimi məntəqənin belə müsəlmanlar tərəfindən işğal edilərək, bu surətlə müsəlmanlar yaşayan yerlərin ermənilərin əlindən qurtarılmasına xüsusilə cəhd göstərilməsini üstün tuturam. Mənafeyimizə ən çox uyğun olan bu şəkil gerçəkləşməzsə, onda ermənilərə də bir mövcudiyyət verilməsi qaçılmaz olar. Belə olan təqdirdə, ermənilərin gələcəkdə vücud bularaq yaşamayacaq surətdə olduqca çox zəif bir halda buraxılmalarına çalışmaq lazımdır. Həm hökumətimizin, həm də Qafqazdakı müsəlmanların indiki və gələcəkdəki mənafeləri, ancaq bu surətdə təhlükədən qurtarıla bilər..." (Atase; 4/3671. k.2919, d.61-499, f.3-31).

Buradan açıq-aydın görünür ki, Ənvər paşa da Tələt paşa ilə eyni mövqedən çıxış edərək, Qafqazda erməni dövlətinin yaradılmamasına, ermənilər tərəfindən işğal edilmiş ərazilərin, ilk növbədə isə müsəlmanların yaşadıqları İrəvan quberniyasının ermənilərdən azad edilməsinə üstünlük verirdi. Yəni, o, qətiyyətlə İrəvanın ermənilərə verilməsinə qarşı çıxırdı.

Ancaq Xəlil bəylə eyni mövqedən çıxış edən Vehib paşa Ənvər paşanın 27 may tarixli teleqramına cavabında 1918-ci ilin may ayının 29-da yazırdı: "Erməniləri büsbütün qeyri-mövcud edə bilmərik. Hər halda onlara bir vücud vermək zərurəti və məcburiyyətindəyik" (ATASE; k.2930, d.553, f.4.). Onlar bunu mövcud reallıqla əlaqələndirirdilər. Bölgədə səpələnmiş halda yaşayan 400 min ermənini Osmanlı imperiyasının ″başına bəla almaması″ üçün, kiçik bir ərazidə belə olsa erməni dövlətinin yaradılmasının zəruri olduğunu düşünür və ermənilərin bu dövlətdə yerləşdirilməsini labüd hesab edirdilər (BOA, HR. SYS, D. 2371, G. 6 v. 82-83).

Oxşar fikir Azərbaycan tərəfində də mövcud idi. İstiqlaliyyət elan edildikdən sonra yeni yaranmış dövlətlərin sərhədlərini müəyyən etmək zərurəti meydana çıxmışdı və Cənubi Qafqazda yaranan milli respublikalar içərisində ən çətin vəziyyətə Ermənistan respublikası düşmüşdü. 1918-ci ildə Azərbaycanın mövcud durumu Zaqafqaziya Seyminin Azərbaycan fraksiyasının nümayəndələrini ermənilərə dövlət yaratmaqdan ötrü hansı Azərbaycan torpaqlarının verilməsini müəyyən etmək üçün Türkiyənin vasitəçiliyi ilə erməni tərəfi ilə danışıqlara girməyə məcbur etdi. Çünki, yaranmış tarixi şərait bunu diktə edirdi. Belə ki, Azərbaycan tərəfinin, həm böyük dövlətlərin təzyiqlərinə, həm də ölkənin bütün ərazilərində soyqırımları həyata keçirən daşnak-erməni silahlı birləşmələrinə və onların arxasında duran dövlətlərə silahlı müqavimət göstərmək gücü yox idi. Buna görə də danışıqlara getmək zərurəti yaranmışdır. Onlar ərazi güzəşti müqabilində, ermənilərin Türkiyə ərazilərindən Azərbaycan torpaqlarına, o cümlədən Bakıya axınının qarşısının alınacağına, Azərbaycan xalqına qarşı soyqırımları dayandıracaqlarına və bir daha ölkəmizə qarşı ərazi iddiaları irəli sürməyəcəklərinə ümid bəsləyirdilər. Azərbaycan tərəfi güman edirdi ki, bu addım, həm də, beynəlxalq aləmdə rəğbətlə qarşılanacaqdır.

Bütün bunları nəzərə alaraq Batumda danışıqlar aparan Azərbaycan nümayəndələri M.H. Hacınski və M.Ə.Rəsulzadə hələ 1918-ci il mayın 23-də Ənvər Paşaya Aslan bəy Səfikürdski, Əhməd bəy Pepinov, Məmməd Yusif Cəfərov, Fətəli xan Xoyski, Nəsib bəy Usubbəyov və Xəlil bəy Xasməmmədovun imzaladığı xüsusi müraciətnamə göndərmişdi Müraciətdə, onlar öz mövqeyini əsaslandıraraq bildirirdilər ki, əgər bölgədə üç – gürcü, müsəlman və

erməni kantonları yerinə yalnız iki – gürcü və müsəlman dövlətləri yaradılarsa, o zaman Cənubi Qafqazda və xüsusilə də Osmanlı imperiyasına birləşdiriləcək ərazilərdə yaşayan böyük erməni kütləsi Azərbaycana axışacaq. Bu da Azərbaycana faktiki olaraq daha böyük qırğınlar, müsibətlər və dağıntılar gətirəcək. Buna yol verməmək üçün kiçik bir ərazidə ermənilərin milli dövlətlərini yaratmaq və onları ora cəm etmək lazımdır (BOA, HR. SYS, D. 2398, G. 4, V. 12).

Ənvər paşa tərəfindən İstanbuldan Batuma göndərilmiş Əli bəy Hüseynzadə və Əhməd bəy Ağaoğlu Cənubi Qafqaz federasiyasının dağılması halında erməni məsələsinin yaradacağı problemlər, xüsusilə də Osmanlı imperiyasına birləşdiriləcək ərazilərdən Azərbaycana doğru baş verə biləcək erməni köçü ilə bağlı Batum konfransındakı Azərbaycan nümayəndələri ilə eyni fikirdə olsalar da erməni dövlətinin yaradılması məsələsində onların mövqeyini bölüşmürdülər. Belə ki, onlar 1918-ci il mayın 22-də Tələt paşaya və Ənvər paşaya ünvanladıqları müraciətdə erməni dövlətinin yaradılmasına imkân verilməməsi və müsəlmanların üstünlüyü şəraitində Qafqaz konfederasiyası yaradılmasının vacibliyini vurğulayır və bunun həm Osmanlı imperiyası, həm də Qafqaz üçün faydalı olacağına qənaət hasil etdiklərini bildirirdilər (BOA, HR. SYS, D. 2398, G. 4, V. 19).

Ə.Hüseynzadə və Ə.Ağaoğludan fərqli olaraq M.Ə.Rəsulzadə və M.H.Hacınski bu məsələ ilə bağlı mütəmadi olaraq həm Osmanlı heyəti ilə, həm də erməni nümayəndələri ilə müzakirələr aparmış və sonuncuların federasiyanın dağılması halında azərbaycanlılarla konfederasiyada birləşməyə maraqlı olmadıqları və öz dövlətlərini yaratmağa çalışdıqları məlum olmuşdu. Eyni zamanda, gürcülər də azərbaycanlılarla ermənilərsiz konfederasiya qurmağa razı olmamış və erməni dövlətinin də yaradılmasının vacibliyi tezisini irəli sürmüşdülər. Buna görə də Azərbaycan nümayəndələri federasiyanın dağılması halında kiçik bir ərazidə də olsa da erməni dövlətinin yaradılmasının vacibliyi mövqeyindən çıxış edir və bu dövlətin İrəvan deyil, Aleksandropol mərkəz olmaqla yaradılmasına çalışırdılar. Beləliklə, Azərbaycan tərəfi bu məsələdə bəlli səbəblərə görə məhz Xəlil bəy və Vəhib paşa ilə eyni mövqedən çıxış etmək məcburiyyətində qalmışdır.

Cənubi Qafqaz federasiyasının parçalanacağı təqdirdə erməni dövlətinin yaradılması məsələsi ətrafında Batumla İstanbul arasında intensiv müzakirələrin getdiyi bir dövrdə 1918-ci il mayın 26-da gürcülər Zaqafqaziya seymindən çıxıb Gürcüstanın müstəqilliyini elan etdilər. Ertəsi gün seymin müsəlman fraksiyası yaranmış siyasi vəziyyəti müzakirə etmək üçün fövqəladə iclas çağırdı. Uzun sürən müzakirələrdən sonra Müvəqqəti Milli Şura yaratmaq qərara alındı. 1918-ci il may ayının 28-də Milli Şuranın birinci iclası keçirildi və iclasda Azərbaycanın müstəqil dövlət elan olunması haqqında tarixi qərar qəbul edildi. Gürcü və azərbaycanlılar öz istiqlaliyyətini konkret ərazi hüdudlarında elan etdilər. Ermənilər isə, belə bir konkret əraziyə malik olmadıqlarından Batum danışıqlarının nəticələrini gözləməli oldular.

Azərbaycan nümayəndələrinin müraciəti, eyni zamanda Xəlil bəy Menteşənin təkidləri sədrəzəm Tələt paşa və hərbi nazir Ənvər paşanın erməni dövlətinin yaradılması məsələsindəki mövqeyinə ciddi təsir etdi. Ənvər paşa 29 mayda Batuma göndərdiyi təlimatda Osmanlı dövlətinin mərkəzi Gəncə (AXC-Red) olan hökumətlə birbaşa sərhədlərinin olmasının vacibliyini bildirirdi. Onun fikrincə, bu sərhədlər Qarakilsənin şimalından və Naxçıvandan keçməli

idi (Həsənli, 2009, s. 80). Belə olan təqdirdə Osmanlı dövlətinin bir tərəfdən Naxçıvan, digər tərəfdən isə Qarakilsədən Azərbaycanla sərhədi olurdu, Ermənistanın Gürcüstanla birbaşa əlaqəsi kəsilirdi və o, Osmanlı dövləti ilə Azərbaycan arasında bir ada şəklində qalırdı.

Batum konfransında (11 may- 4 iyun 1918) erməni dövlətinin yaradılması məsələsi ətrafında aparılan danışıqlar barədə Sədrəzəmə məlumat verən Xəlil bəy bu məsələni aşağıdakı şəkildə şərh edirdi: "... Ermənilərə gəlincə, onlar İrəvanın yerdə qalan qismində təşəkkül edə bilərlər. Sədrəzəmin Qafqazda erməni mövcudiyyətinin əleyhinə olmadığına məmnun oldum. Bu bir siyasi zərurətdir... Qafqazda ermənilərin ən kompakt yaşadığı yerlər bizim tələb etdiyimiz ərazilərdir. Bu ərazilərin xaricində qalan digər yerlərdə ermənilər müsəlmanlar arasında çox dağınıq bir şəkildə yaşayırlar. Alacağımız ərazilərin qarşı tərəfində ermənilərin siyasi birliyinin təşkili üçün bir ərazi ayrılmasının uyğun olub-olmadığını müsəlman nümayəndələrlə geniş müzakirə etdik və nəticədə bunun qeyri-mümkün olduğu məlum oldu... arzum xilafında da olsa da təbii ki, vəzifəmi icra edəcəyəm. Fəqət zərurət ilə qoyacağım bu imza həyatımın ən acı bir səhifəsi olacaqdır" (Arda; f.970. s. 1, i 3, v.6 ).

Batum danışıqlarında İrəvanın ermənilərə verilməsi ilə bağlı razılaşma əldə olunduqdan sonra, mayın 29-da Azərbaycan Milli Şurasının Həsən bəy Ağayevin sədrliyi ilə keçirilən üçüncü iclasında İrəvan şəhərinin ermənilərə verilməsi və İrəvan bölgəsində erməni dövlətinin yaradılması məsələsi müzakirə edildi. Erməni Milli Şurası ilə danışıqlar barədə Nazirlər Şurasının sədri Fətəli xan Xoyski məlumat verdi. O göstərdi ki, Ermənistan Federasiyası yaratmaqdan ötrü onlara siyasi mərkəz lazımdır, Aleksandropol türklər tərəfindən tutulduqdan sonra belə bir siyasi mərkəz, ancaq İrəvan şəhəri ola bilər, ona görə bu şəhərin ermənilərə güzəştə gedilməsi labüddür. Bu məsələ barəsində Xəlil bəy Xasməmmədov, Məmməd Yusif Cəfərov, Əkbər ağa Şeyxülislamov, Məhəmməd Məhərrəmov çıxış edərək İrəvan şəhərinin ermənilərə güzəşt edilməsini qaçılmaz bəla kimi qiymətləndirdilər. Milli Şuranın iclası İrəvan şəhərinin ermənilərə güzəştə gedilməsi barədə öz razılığını bildirdi (Arda, f.970, s.1, i. l, v.51). Bundan iki gün sonra İrəvan Milli Şurasının üzvləri Mir Hidayət Seyidov, Bağır Rzayev və Nəriman bəy Nərimanbəyov İrəvan şəhərinin Ermənistan Respublikasına güzəştə getməsinə etiraz etdilər, lakin iyun ayının 1-də keçirilən Azərbaycan Milli Şurasının iclası bu etirazı qəbul etmədi (Arda, f.970, s.1, i.1,v.53).

Batum konfransında erməni dövlətinin yaradılması ilə bağlı aparılan danışıqlar may ayının 30-da sona çatdı. Həmən gün Osmanlı-erməni ikitərəfli formatında, daha sonra Osmanlı-erməni-Azərbaycan üçtərəfli formatında danışıqlar başladı. Çox qısa və ultimativ şəkildə aparılan bu danışıqlarda Xəlil bəy ermənilərin lehinə bəzi ərazi güzəştlərinə getdi. O, Ənvər paşanın bütün xəbərdarlıqlarına baxmayaraq, Aleksandropol qəzasının bəzi şərq ərazilərini ermənilərə güzəştə gedəcəyini bildirdi və bunu tərəflər arasında "dostluq münasibətlərinin qurulmasının başlanğıcı olaraq" Türkiyənin ermənilərə bir lütfü kimi qəbul etmələrini vurğuladı (Qafarov, 2019, s. 86).

Bundan sonra Osmanlı-erməni-Azərbaycan nümayəndələri üçtərəfli formatda sərhəd məsələləri ilə bağlı danışıqlar apardı. Ermənilərin Yelizavetpol quberniyasının bir hissəsinə (Qarabağa) olan iddialarından imtina etməsi şərtilə Azərbaycan "Aleksandropol quberniyası"

hüdudlarında Erməni dövlətinin yaradılmasına və Ermənistan-Azərbaycan sərhədinin Göyçə gölü olması barədə razılıq verdi (ARPİİ SPİHDA, f.276, s.9, i. 1, v.47). Bununla da, erməni kantonunun Osmanlı imperiyasının yeni sərhədləri ilə Göyçə gölü arasında yaradılması haqqında yekun razılıq əldə edilmiş oldu. Xəlil bəy sədrəzəm Tələt paşaya göndərdiyi teleqramda Osmanlı-erməni-Azərbaycan danışıqlarında əldə edilən razılaşmalarla bağlı yazırdı: "İndi erməni nümayəndələr gəldilər… Bizim iznimizlə ermənilərlə müsəlmanlar ermənilərə ayrılacaq kanton haqqında razılığa gəldilər. Ermənilər Göyçə gölü ilə bizim yeni sərhədimiz arasındakı dar və dağlıq sahə ilə kifayətləndilər" (BOA, HR.SYS, D. 2398, G. 5., V. 146, 150-15).

İrəvanın ermənilərə verilməsi və İrəvan bölgəsində erməni dövlətinin yaradılması müqabilində erməni heyəti aşağıdakı şərtlərin yerinə yetirilməsini öz üzərinə götürdü:

1. Ermənilər türk-müsəlmanlara qarşı düşmənçiliyi aradan qaldırmalı, erməni hərbi hissələrini Bakıdan çıxartmalı və Şaumyanla əlaqəyə girib Bakıdakı müsəlman əhalinin təhlükəsizliyini təmin etməli idilər;

2. Azərbaycan qəzalarında erməni silahlı birləşmələri tərəfindən müsəlmanlara qarşı həyata keçirilməkdə olan kütləvi qırğınlar dayandırılmalı idi;

3. Ermənistan hökuməti İrəvanda və yeni yaradılan erməni dövlətinin digər ərazilərində qalan müsəlmanların sərbəst dini ibadət, mədəniyyət, siyasi və ana dilində təhsil almaq hüquqlarını təmin etməli idi;

4. Ermənilər Yelizavetpol quberniyasının bir hissəsinə, konkret olaraq Qarabağa olan ərazi iddialarından imtina etməli idilər. Bütün bu öhdəliklər tərəflər arasında imzalanan razılaşma, protokol, 4 iyun 1918-ci il tarixli Osmanlı-Ermənistan "Sülh və Dostluq" müqaviləsi və əlavə müqavilələrdə və Gümrü protokollarında təsbit edildi (Qafarov, 2019, s. 88).

Osmanlı siyasi dairələri İrəvanı güzəştə getmək istəməsələr də sonda buna razı oldular. Çünki türklər yeni yaranan erməni dövləti uçun siyasi mərkəzlə bağlı iki seçim qarşısında qalmışdılar: ya Aleksandropolu ermənilərə verməli və bu şəhərlə bağlı irəli sürdüyü tələbindən geri çəkilməli, ya da İrəvanı müsəlmanlardan alıb onlara verməli idilər. Bu iki seçim qarşısında Aleksandropoldan imtina etmək fikrini qəbul etməyən Osmanlı siyasi dairələri ikinci varianta üstünlük verdilər (Qafarov, 2011, s. 162). Türk nümayəndə heyətinin rəhbəri Xəlil bəy sədrəzəmə göndərdiyi 30 may tarixli teleqramında bu məsələ ilə bağlı yazırdı: "...ermənilərlə müsəlmanlar ermənilərə ayrılacaq kanton haqqında razılığa gəldilər. Ermənilər Göyçə gölü ilə bizim yeni hüdud arasındakı dar və dağlıq sahə ilə kifayətləndilər. Ermənilərlə yeni hüdudumuzun qarşı tərəfində Göyçə gölü ilə bizim yeni hüdud arasındakı dar və dağlıq ərazidə təşəkkül etmiş bir hökumət sifətiylə müzakirələr sona çatmışdır..." (BOA, HR.SYS, D. 2372, G. 3, V. 94).

Azərbaycan Milli Şurasının 29 may 1918-ci il tarixli qərarına əsasən ermənilərə dövlət yaratmaq üçün İrəvanla birlikdə aşağıdakı Azərbaycan torpaqları verilmişdi: Yeni Bayazit qəzası (Basarkeçər adlanan cənub-şərq qismi istisna olmaqla), İrəvan qəzası (Qəmərli-Gərnibasar, Uluxanlı-Zəngibasar və Vedibasar istisna olmaqla), Eçmiədzin qəzası (Sərdarabad istisna olmaqla) və Aleksandropol qəzası (qəza mərkəzi Aleksandropol istisna olmaqla). Beləliklə, yeni

yaradılmış Ermənistan Respublikası Göyçə gölü ilə Osmanlı dövlətinin yeni sərhədləri arasındakı dar dağlıq ərazini əhatə edirdi.

Beləliklə, 1918-ci il mayın 29-da Azərbaycan ərazisində - Cənubi Qafqazda erməni dövləti yaradıldı. Ertəsi gün - mayın 30-da erməni dövlətinin yaradılması barədə bəyannamə elan olundu. (Bozkurt, 2013, s. 24).

Sonda qeyd edək ki, ermənilər məqsədlərinə nail olduqdan dərhal sonra Batum danışıqları zamanı və Batum müqavilələrinə əsasən İrəvan və ətrafındakı Azərbaycan torpaqlarının onlara verilməsi müqabilində üzərilərinə götürdükləri bütün öhdəlikləri yerinə yetirməkdən imtina etdilər. Tarix göstərdi ki, İrəvan Azərbaycanın mənafeyi baxımından əbəs yerə ermənilərə güzəştə gedilmiş oldu... Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğu dövründə torpaq iddiasına davam edən ermənilər Azərbaycanda Sovet hakimiyyəti qurulandan (28 aprel 1920-ci il) və dövlət müstəqilliyinin bərpasından (18 oktyabr 1991-ci il) sonra da bu siyasəti davam etdirdilər. 27 sentyabr-10 noyabr 2020-ci ildə baş verən 44 günlük Vətən müharibəsi isə bugün üçün onların iddialarına dur deyən böyük tarixi hadisədir.

## Kaynakça / References


ARDA, f.970. s. 1, i 1, v. 46 // Keçmiş Cənubi Qafqaz Seyminin müsəlman üzvlərinin fövqəladə iclasının protokolu. 27.05.1918

ARDA, f.970, s.1, i. l, v.51 // Azərbaycan Milli Şurasının 3 saylı iclasının protokolu. 29.05.1918.

ARDA, f.970, s.1, i.1,v.53 // Azərbaycan Milli Şurasının 4 saylı iclasının protokolu. 01.06.1918.

ARDA, f.970, s.1, i.1,v.54 // Azərbaycan Milli Şurasının 4 saylı iclasının protokolu. 01.06.1918.

ARDA; f.970. s. 1, i 3, v.6 // Türkiyə ilə sülh danışıqlarının gedişi haqqında Cənubi Qafqaz Seymi nümayəndəliyinin məruzəsi. 1918.

ARDA, f.970, s.1, i. 5, v.14 // Xarici işlər naziri M.H.Hacınskinin Türkiyə Xarici İşlər naziri Əhməd Nəsim bəyə Türkiyə səfirliklərinin Azərbaycanı Avropa paytaxtlarında təmsil etmək xahişi barədə teleqramı. 30.05.1918.

ARPİİ SPİHDA, f.276, s.9, i. 1, v.47;

BOA, HR.SYS, D. 2372, G. 3, V. 94

BOA, HR.SYS, D. 2398, G. 4, V. 12 a.b.c.d.

BOA, HR.SYS, D. 2398, G. 5, V. 146, 150-151

BOA, HR.SYS, D. 2398, G. 4, V. 19.

BOA, HR.SYS, D. 2398, G. 5, V. 129-130;146; 151 a-b

Bozkurt, A. (2013). Osmanlı Devleti ile Ermenistan Cumhuriyeti Arasındaki İlişkiler (1918-1920). *OTAM*, 34/ Güz 2013, 19-58.

Həsənli, C. (2009). *Azərbaycan Xalq Cümhuriyyətinin Xarici Siyasəti (1918-1920).* Bakı: Garisma MMC.

Kurat, A. (1990). *Türkiye ve Rusya*. Ankara: Kültür Bakanlığı Yayınları

Musayev, İ. (2003). *Böyük Dövlətlər və "Erməni Məsələsi"*.

Qafarov, V. (2019). Batum Konfransında Ermənistanın Təşəkkülü və İrəvanın Ermənilərə Verilməsi Məsələsi (11 may – 4 iyun 1918). *Bakı Universitetinin Xəbərləri. Humanitar Elmlər Seriyası* içinde (s. 66-91).

Qafarov, V. (2011). *Türkiyə-Rusiya Münasibətlərində Azərbaycan Məsələsi (1917-1922)*. Bakı: Azərnəşr.

Türkiye Cumhuriyeti Genelkurmay Başkanlığı Askeri Tarih ve Stratejik Etüd (ATASE) Arşivi. 4/3671. k. 2919, d. 61-499, f. 3-26.

Türkiye Cumhuriyeti Genelkurmay Başkanlığı Askeri Tarih ve Stratejik Etüd Arşivi. 4/3671. k. 2919, d. 61-499, f. 3-31.

Türkiye Cumhuriyeti Genelkurmay Başkanlığı Askeri Tarih ve Stratejik Etüd Arşivi. 4/3671. k. 2930, d. 553, f. 4

**Elektronik Kaynaklar**

Документы и материалы по внешней политике Закавказья и Грузии. Тифлис: Типография Правительства Грузинской Республики, 1919 год. 514 ст. https://rev-lib.com/dokumenty-i-materialy-po-vneshnej-politike-zakavkazya-i-gruzii/.

Сан-Стефанский прелиминарный мирный договор // Московский государственный университет имени М. В. Ломоносова. 1997-2013. URL: http://www.hist.msu.ru/ER/Etext/FOREIGN/stefano.htm